**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə ABŞ dövlət katibi Entoni Blinkenin telefon söhbəti zamanı bölgədə yaranmış gərginliklə bağlı narahatlığını bildirib. Yaranmış gərginliyə görə bütün məsuliyyətin rəsmi İrəvanın üzərinə düşdüyünü bildirən Prezident İlham Əliyev qeyd edib ki, Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən hərbi təxribat törədilib və nəticədə Azərbaycanın hərbi qulluqçusu həlak olub. Prezident İlham Əliyev Azərbaycan tərəfinin bu hərbi təxribatın qarşısını almaq üçün zəruri cavab tədbirlərini həyata keçirdiyini vurğulayıb. Dövlətimizin başçısı bildirib ki, Azərbaycan tərəfi 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın müddəalarına uyğun olaraq Ermənistan silahlı qüvvələrinin və qanunsuz erməni hərbi birləşmələrinin ərazilərimizdən çıxarılması məsələsini dəfələrlə gündəliyə gətirib. Amma Ermənistan tərəfindən bu öhdəlik yerinə yetirilmir, müxtəlif bəhanələr və ziddiyyətli bəyanatlar səsləndirilir.**



# "Qisas" növbəti sarsıdıcı zərbə, uğurlu nəticə

44 günlük Vətən Müharibəsi zamanı kapitulyasiya aktı imzalamağa məcbur olan Ermənistan rəhbərliyi iki ilə yaxındır ki, üzərinə götürdüyü öhdəliklərə əməl etmir. Azərbaycan dövləti bu müddət ərzində proseslərə səbir və təmkinlə yanaşıb, məsələni dinc yolla, danışıqlar masasında həll etməyə çalışıb. Müzəffər Ali Baş Komandan İlham Əliyev dəfələrlə bəyan edib ki, biz bölgədə yeni müharibə istəmirik. Çünki erməni silahlı birləşmələrinin Azərbaycan ərazisində qalması tamamilə qəbuledilməzdir. Amma təəssüf ki, rəsmi İrəvan bu xəbərdarlıqlardan nəticə çıxarmadı. Azərbaycanın Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri 10 noyabr 2020-ci il tarixli Bəyanatın müddəalarını kobud surətdə pozaraq 2022-ci il 3 avqust tarixində Azərbaycan Ordusunun bölmələrinə qarşı terror-təxribat əməli törətdi. Terror-təxribat nəticəsində hərbi qulluqçumuz əsgər Kazımov Anar Rüstəm oğlu şəhid oldu. Bundan əlavə, qeyri-qanuni erməni silahlı dəstələrinin ünsürləri Kəlbəcər və Laçın rayonlarının ərazisini əhatə edən dağ silsiləsində yerləşən Qırxqız yüksəkliyini ələ keçirmək və orada yeni döyüş mövqelərini qurmağa cəhd göstərdi. Azərbaycan Ordusu bölmələrinin keçirdiyi "Qisas" cavab əməliyyatı nəticəsində Şəhidimizin qanı yerdə qalmadı. Düşmənə sarsıdıcı zərbələr vuruldu. Vəziyyət o həddə çatdı ki, Qarabağdakı separatçı rejimin tör-töküntüləri "səfərbərlik" elan etmək məcburiyyətində qaldılar. "Qisas" cavab əməliyyatı nəticəsində Qırxqız yüksəkliyi, həmçinin Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəkliklər bölmələrimizin nəzarətinə götürüldü. Hazırda Ordumuz tərəfindən əlverişli hüdudlarda yeni mövqelərin qurulması və təminat yollarının çəkilməsi üzrə mühəndis işləri görülür. Antiterror əməliyyatı nəticəsində ən azı 4 erməni terrorçusu məhv edilib, 19-u yaralanıb.

Ölkəmiz Ermənistana bir daha sübut etdi ki, baş verən təxribata görə mütləq və artıqlaması ilə cavab olacaq. Kiminsə himayəsinə sığınmaqla terror fəaliyyətini davam etdirməyə Azərbaycan qətiyyən dözməyəcək. Qeyd edildiyi kimi, ölkəmiz qanunsuz erməni silahlılarının Azərbaycan ərazisindən çıxmasını, Zəngəzur yolunun açılmasını və Laçın yolunun alternativə dəyişdirilməsini tələb edir. Bu tələblər 10 noyabr 2020-ci il bəyanatına əsaslanır. Heç bir manipulyasiyanı, müxtəlif bəhanələrlə vaxt uzatmağı Azərbaycan qəbul etməyəcək. Azərbaycan ordusu terrorçu yuvalarını məhv etməyə qadirdir. Müdafiə Nazirliyinin erməni mövqelərindən yaydığı kadrlar göstərdi ki, qarşı tərəf Qarabağda kifayət qədər döyüş maşınları, haubitsalar, tanklar saxlamaqda davam edir. Bu əməliyyatla Azərbaycan Qarabağın hər tərəfinə nəzarət etdiyini, terrorçu yuvalarını dəqiq bildiyini və onların yerdəyişmələrini anbaan izlədiyini, istədiyi vaxt bir zərbə ilə hamısını məhv etməyə hazır olduğunu sübut etdi. "Əgər Ermənistan sərhədlərin müəyyən edilməsi işində yenə də öz köhnə taktikasına qapılsa, vaxt uzatmağa çalışsa, nəticədə özü peşman olacaq. Biz Ermənistanda baş qaldıran revanşist qüvvələrin hərəkətlərinə diqqətlə baxırıq. Onlar da bunu bilsinlər. Bax, o dağın başında mənim sözlərim yazılıb: "Dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın". Bu barədə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Silahlı Qüvvələr Günündə Kəlbəcər rayonuna səfəri çərçivəsində komando hərbi hissəsinə döyüş bayrağının verilməsinə həsr olunmuş təntənəli mərasimdə çıxışı zamanı deyib.

Erməni mediası və rəsmilərinin açıqlamaları isə Azərbaycan Ordusunun təxribata bu qədər kəskin və sərt reaksiya verəcəyini gözləmədiklərini göstərir. Elə bundan sonra ermənilərin olanlardan bəzi dərslər çıxardığı da bəlli olub. Belə ki, Ordumuzun son dərslərindən sonra Ermənistanın "pastark" agentliyinin məlumatına görə, Qarabağdakı separatçı-terrorçu rejimin qalıqları Laçın şəhəri, Zabux və Sus kəndlərində qalan ermənilərin təxliyəsinə başlayır. Erməni separatçılarının rəhbərləri Suriyadan və Livandan gətirilərək, Laçına yerləşdirilən ermənilərin evakuasiya proqramını da artıq tərtib edib. Kimin hara gedəcəyi də məlumdur. Halbuki zamanında Azərbaycan torpaqlarında məskunlaşmanın yolverilməz olduğunu dəfələrlə bəyan etmişdik. Separatçı rejim Laçından çıxacaq insanlara mənəvi kompensasiya kimi evləri yandırmağı tövsiyə edir. Ən acınacaqlı məqam Ermənistan hakimiyyətinin hazırkı mövqeyi ilə bağlıdır. Ermənistan Baş naziri də daxil olmaqla, 10 noyabr 2020-ci il bəyanatı üzərində manipulyasiya edən və bəhanələr axtaran Təhlükəsizlik Şurasının katibinin, müdafiə naziri və yaxud Baş Qərargah rəisinin hər hansı açıqlaması və müdaxiləsi yoxdur. Ortada yalnız separatçı tör-töküntüsünün sülhməramlılara yalvarışlarını əks etdirən açıqlamaları var. Bu isə o deməkdir ki, İrəvan dolayısı ilə baş verənləri Azərbaycanın daxili işi hesab edir və yaxud Azərbaycanın bu cür qətiyyətli və sərt cavabından şoka düşüblər. Bu Ermənistan siyasi-hərbi rəhbərliyi üçün növbəti dərsdir. Nəhayət, bəhanələr sona çatmalı və bəyanatların tələbləri icra edilməlidir.

## *Azərbaycanın suveren ərazilərində qanunsuz erməni birləşmələrinin təxribatının qarşısı ordumuzun antiterror əməliyyatı ilə dərhal və qətiyyətlə alınır*

Xarici İşlər Nazirliyinin Mətbuat xidmətinin məlumatında bildirildi ki, Azərbaycan tərəfi Ermənistanın 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmədiyini və qanunsuz erməni silahlı dəstələrinin hələ də Azərbaycan ərazisindən çıxarılmadığını dəfələrlə bəyan edib. Avqustun 3-də baş vermiş qanlı insident bir daha Ermənistanın üçtərəfli razılaşmanı kobud şəkildə pozduğunu, eyni zamanda, iki dövlət arasında münasibətlərin normallaşdırılması istiqamətində səylərə xələl gətirdiyini nümayiş etdirir. Bu, həmçinin Ermənistanın beynəlxalq vasitəçilərin səylərinə hörmətsizliyinin göstəricisidir. Azərbaycan ərazisində baş verən insidentin bütün məsuliyyəti qonşu dövlətin torpaqlarında qanunsuz silahlı birləşmələrini hələ də çıxarmayan Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşür.

**Mustafa KAMAL, "Respublika".**